

Şahid Məmmədkərimov

### AYSEL

Balaca Aysel
Dil otu yeyib.
O, uşaqlara
Gör nələr deyib:
- Bizim həyətdə
Gələndə bahar
Seyrinə dalsan
Başqa dünya var.
Ətri yayılan
Çiçəklər rəng-rəng.
Onların üstə



Qonur kəpənək.
Kəpənəyin də
Qanadı xal-xal,
Güi, çiçək kimi
Sarı, yaşıl, al.
Görən o rəngi
Gül ona vermiş?
Yoxsa, gül, çiçək
Ondan götürmüş?
Anam deyir ki,
Belədir bahar
Onun minlərlə
Möcüzəsi var.

### TANIMIRSAN SƏN?

Gəlir qonaqlar,
Salamlaşaraq.
Balaca Elçin,
Böyüklər sayaq.
Xoş gəldin deyir,
Hamıya bir-bir.
Çoxusu onun
Alnından opür.
Amma bir qonaq
Dayandı bir an.
Tutub Elçinin
Yanaqlarından.
Çəkdi bir azca
O yan-bu yana.
Sonra da birdən
Sataşdı ona.
Dedi:
- Afərin!
Nə gözəl qızdır!
Sanki göydəki
Aydır, ulduzdur.
Elçin şəst ilə
Baxıb qonağa
Diqqətlə süzdü
Başdan ayağa.
Dedi:
- Bu boyda
Yekə kişisən.
Qızı, oğlanı,
Tanımırsan sən?!

### BİLMİRƏM

Qüdrətdən yaranıbdır,
Bu qız lap dürdanədir:
- A gəşəng, söylə görüm,
Bəs sənin adın nədir?
- Anam deyir, ay Mələk,
Bibim söyləyir, Çiçək.
Bacım çağırır, Göyçək.
Qardaşım da arabir,
Deyir ki, sən, Laləsən.
Qonşumuz Nabat xala
Baxıb boya-buxuna.
Söyləyir, Şəlaləsən.
İndi, sən də dedin ki,
Ay qız, sən Dürdanəsən
Atam da qucaqlayıb
Deyir Arzum, Muradım.
Düşünərək qalmışam.
Bilmirəm nədir adım?

### LALƏNİN CAVABI

Aysel baxıb çəməndə,
Yanağı al laləyə.
Dedi bağrının başı
O qara xal laləyə:
- Sən çiçəklər tacısan
Nədir bu adət səndə.
Tökülür ləçəklərin
Yerə səni dərəndə?
Lalə dedi:
- Hüsnümlə,
Mən düşsəm də dillərə
Hər an qibtə edirəm.
Çiçəklərə, güllərə.
Ətirsizəm deyə, dost,
Məni dərəndə hərdən.
Tökürəm yarpağımı
Yerə xəcalətimdən.

### BƏS NİYƏ?

Babbalaca Afaqım
Bənizi ağappağım
Dedi:
- Nənə, ay nənə,
De, bu nədir tikiblər
Paltarımın üstünə?
Nənə öpdü Afaqı,
Sığılladı üzünü
Dedi:
- Bu saat deyim
Sənə sözün düzünü.
Bu gördüyün nəki var
Gül-çiçəkdi, ay bala,
Çiçəyin üstündəki
Kəpənəkdi, ay bala.
Afaq etiraz etdi:
-Nənə, aldatma məni
Anam dünən göstərib
Həyətdə kəpənəyi.
Qanadında xalları
Sarı, yaşıl, qonurdu,
Uçub o bir çiçəkdən
Başqasına qonurdu.
Bəs niyə uçmur, qaçmır
Bu da kəpənək isə?
Bəs niyə ətri yoxdur
Bunlar gül-çiçək isə?

### BAHARDA

Bənövşə, novruzgülü
Açır bizim baharda.
Gülür baxışları da
Dağın, düzün baharda

Leysan yağışlar yağır
Sular axır, çağlayır,
Gəlir Novruz, ilaxır,
Nəğməm, sozüm baharda.

Bənövşə boynun əyir,
Hər yan yaşıl don geyir,
Çaylar coşur, kükrəyir.
Bir də, özüm baharda.

### BEŞİKDƏKİ KÖRPƏLƏR

Mışıltınız sükutun
Əfsanəvi dünyası
Gülüşünüz ürəkdə
Sevinc, şadlıq mayası.
Qığıltınız tanrının
Bizə verdiyi payı.
Dağlardan axıb gələn
Suların hay-harayı.
Hər birisi bir səhər
Beşikədiki körpələr.



Ayaq basdız ilk dəfə
Tə...Tə..deyib oxşadıq
Geyindirib paltarı
Pə..Pə...deyib oxşadıq.
Laylaların içində
Hərəniz bir biçimdə
Yatıb boy atırsınız.
Bir-birindən təzə-tər
Beşikdəki körpələr.

Biz tutub əlinizdən
Opbalara apardıq
Gah yayın istisinə,
Gah da qara apardıq.
Qoy ötsün üstünüzdən
Elə payız da, qış da
Böyüyüb təntiməyin
Sonra eniş, yoxuşda
Gələcəyə ana, ər
Beşikdəki körpələr.

### QABLARIN ŞİKAYƏTİ

Bufetdə səliqəylə
Düzülübdü qab-qacaq
Nə qədər istəsən var
Büllurlar qucaq-qucaq,
Boşqablar çeşid-çeşid,
Kasalar düjün-düjün
Alınıb ancaq, ancaq
Bufet bəzəmək üçün.
Bu evin sahibinin
Yenə doymurdu gözü
Alıb gətirdi evə
Bir "Madonna" servizi
Boşqabları bir anda
Bufetindən götürdü
Dolabının qaranlıq
Gözlərinə ötürdü.
Sıxlaşdırıb qabları
Qoydu ortaya onu
Bənzətdi gah ulduza,
Gah da ki aya onu.



Düşündü ki, "Madonna"
Alidən də alidi
Çünki özümüzün yox,
Xaricinin malıdı.
Madonna da deyəsən
Bu gedişi anladı
Bildi, başa qoyurlar
Bu yerdə ancaq yadı.
Kinayə ilə gülüb
Səsini çıxarmadı.
Bu vaxt eşidilirdi
Qab-qacağın fəryadı:
-Biz vətənin torpağı,
Suyulə yoğrulmuşuq,
Müqəddəs odu ilə
Bişib boşqab olmuşuq,
Onunçünmü görəsən
Qaranlıqda qalmışıq?
Qorxa-qorxa, ehmalca
Madonna serviz bu an
Baxıb dörd bir tərəfə
Pıçıldadı astadan:
- Etməyin kin-küdurət
Mənə qarşı beləcə.
Vallah, sizi, məni də
Hazırlayıbdı Gəncə.
Mən də burda qalacam
Ev cahibi bilincə.
Satıcının yox imiş
Dostlar, imanı-dini,
Məharətlə aldatdı
Bizim ev sahibini.
Min bir şirin dil tökük
Bu yadsevər qadına
Satdı məni bazarda
Xarici mal adına.
Görürsüz? Dərdim mənim
Tamam aşıb başımdan.
Heç bilmirəm neyləyim
Düşünürəm anbaan.
Ay Allah, bu nə zülm?!
Məndəki taleyə bax
Asanmıdır Vətəndə
Yad adılə yaşamaq?!

### TƏRİF DEYƏNİMİZ VAR

Bir talaya yığılıb
Heyvanlar, həşəratlar
Hər gün danışırdılar.
Dünyada nə yox, nə var?
Bir gün çaqqal söylədi:
-Siz düşünün bircə an
Kimdir zəhməti ilə
Halal ruzi qazanan?



Canavar elə bu an
Çox dərin fikrə daldı.
O hamıdan qabağa
Özünü yada saldı.
Söylədi ki, o mənəm.
Daşdan çıxır çörəyim.
Gecə-gündüz ovdayam
Deyin, nəyim var, nəyim?
Bir tikə ətdən ötrü
Soxuluram sürüyə.
Çobanın qorxusundan
Ya Allah, deyə-deyə
Bir qoyunu atıram
Boğmalayıb dalıma
Qaçıram tər içində
Yazıq mənim halıma.



Buna kimin sözü var
Zəhmətkeş necə olar?
Ayı sözə qarışdı,
Nərildədi, gurladı
Dedi:
-Qardaş, canavar,
Bu heç düzgün olmadı.
Özümüzdən deməyək
Hər kim sərf edir əmək
Gəlin ondan söyləyək.
Məsələn, qarışqadan
Söz açaq zaman-zaman.
Əməksevər deyirsiz
Ancaq, odur! Bilin siz.
Bir anı da o verməz
Boş-boşuna havaya,
Yem daşıyar durmadan
Qışlıq üçün yuvaya.
İşləyər dayanmadan
Balacası, böyüyü
Yerdə qoymaz bir dənə
Arpa, buğda, ya düyü.



Xülasə, ayı coşdü
Hey... Dedi qarışqadan
Tərifini göylərə
yüksəltdi zaman-zaman
Arı isə, bax, bu an
Qulaq asıb kənardan
Dedi:
-Doğrudan da, bu
Ayı oğlu ayıdı
Elə hey donquldanır
Zırramanın tayıdı.
Hər gün mənim balımı
İştahla alıb yeyir,
Söz düşüb qarışqaya
Utanmaz, tərif deyir.
Elə qarışqanın da
Qədrini bilən deyil.
Zərif, kiçik məxluqa
Yekəpər salıb meyil
Yuvasını görəndə
Özünə bilməz ayıb
Hamısını bir anda
Udar şapalaqlayıb.
Baxın! Daha dünyada
Bizim nə dərdimiz var?
Nəyimiz var tez alıb
Belə yeyənimiz var.
Əməkçiyə ayıtək
Tərif deyənimiz var.